**“PARK BULVARDA VISA İLƏ ALIŞ-VERİŞ SİZDƏN, AVTOMOBİLLƏR VƏ HƏDİYYƏLƏR BİZDƏN!”**

**TİRAJLI STİMULLAŞDIRICI LOTEREYASININ**

**ŞƏRTLƏR VƏ QAYDALARI**

***Tirajlı stimullaşdırıcı Lotereyada iştirak etməyə razılıq verməklə İştirakçı bu Şərtləri oxuduğunu və başa düşdüyünü təsdiq edir və onunla Lotereya Təşkilatçısı arasında hüquqi öhdəlik yaradan bu Şərtləri qəbul etdiyinə razılıq verir. İştirakçı bu Qaydalar üzrə ayrı qayda nəzərdə tutulmamışdırsa, bu Qaydalarda nəzərdə tutulmuş hüquq və öhdəliklərini, (bütövlüklə və ya qismən) ötürə və ya verə bilməz.***

**Tirajlı stimullaşdırıcı Lotereyanın adı və növü**: “PARK BULVARDA VISA İLƏ ALIŞ-VERİŞ SİZDƏN, AVTOMOBİLLƏR VƏ HƏDİYYƏLƏR BİZDƏN!” TİRAJLI STİMULLAŞDIRICI LOTEREYASI

**QEYD: XAHIŞ EDİRİK BU ŞƏRTLƏRİ DİQQƏTLƏ OXUYUN**

**ŞƏRTLƏR:**

**1.** Bu tirajlı stimullaşdırıcı Lotereya **25 noyabr 2024-cü il – 28 mart 2025-ci il tarixləri ərzində** Azərbaycan Respublikası ərazisində yerləşən PARK BULVAR-ın bütün satış məntəqələrində VISAcard kartı ilə alış-veriş etməklə həyata keçiriləcəkdir.

**1.1.** Lotereyanın obyekti: Park Bulvar TM-də yerləşən mağaza və obyektlərdə VISAcard kartı ilə alınan mal və xidmətlər iştirak edir. Nağd ödənişlər və digər kartlar alışlar bu lotereyanın obyekti deyildir.
Qeyd: Lotereyada lotereya obyekti qismində alkoqollu içkilərin, tütün və tütün məmulatlarının iştirakına yol verilmir. Belə ki, İştirakçı PARK BULVAR-da VISAcard kartı ilə alış-veriş edərkən hər alış üçün toplam minimum alış tələbi olan 50 (əlli) manat dəyərində edilən alış-veriş üzrə malın alışını təsdiq edən çek(lər)in içərisində alkoqollu içkilər, tütün və tütün məmulatları olmamalıdır, əks halda həmin çek(lər) Lotereyada iştirak edə bilməz. Bu bəndin tələbini yerinə yetirməyən şəxs lotereya iştirakçısı qismində qəbul olunmur.

1.2. Lotereyaya qoşulmaq üçün iştirakçılar Azərbaycan Respublikası ərazisində yerləşən PARK BULVAR-ın bütün satış məntəqələrindən 25 noyabr 2024-cü il – 28 mart 2025-ci il tarixlərində Azərbaycan Respublikasında qeydiyyatdan keçən və istənilən banka aid buraxılan VISAcard kartları ilə nağdsız qaydada, habelə hər hansı taksit (hissə-hissə), mobil, NFC, QR kod ilə ödənişlər olmaqla və istənilən POS terminal vasitəsilə daxil olmaqla hər alış üçün toplam minimum alış tələbi olan 50 (əlli) manat məbləğində bir və ya bir neçə satış məntəqələrindən alış-veriş etməlidirlər. Həmin ödənişi VISAcard kart vasitəsilə etdiyi zaman PARK BULVAR-da yerləşən satış məntəqələri tərəfindən müvafiq edilən alış-veriş üzrə nəzarət kassa aparatının çeki(lər) təqdim olunacaqdır. İştirakçı lotereyaya qoşulmaq üçün həmin çek(lər)i PARK BULVAR-da yerləşən Lotereya üçün ayrılacaq İnformasiya Mərkəzinə (bundan sonra - “İnformasiya Mərkəzi”) hər gün saat 10:00-dan 22:00-dək yaxınlaşaraq özünə məxsus müvafiq məlumatlarını (dəqiq siyahısı 1.5-ci bənddə göstərilib) təqdim etməli və həmin çek(lər)i qeydiyyatdan keçirməlidir. İnformasiya Mərkəzi təqdim olunan çek(lər)i bu Lotereyanın şərtlərinə uyğun olduğunu yoxlayır və həmin təqdim olunan çek(lər)in arxasına “Təsdiq edildi” möhürü (möhürün nümunəsi qoşmada əlavə olunur) vurur. İnformasiya Mərkəzi xüsusi iki hissədən ibarət lotereya biletin (lotereya biletin bir nüsxəsi qoşmada əlavə olunur) bir hissəsinə təsdiq edilmiş möhürlü çek(lər) tikilərək İştirakçıya təqdim edir,

lotereya biletin digər hissəsi isə ayrılaraq lototrona (hər tiraj üzrə ölçüləri 100x50x50 olan bir lototron nəzərdə tutulur ) atılır. Beləliklə İştirakçı lotereyaya qoşulmalı olacaqdır.

1.3. İştirakçı Lotereyanın 1-ci tiraj ərzində bu şərtlərin 1.2-ci bəndində göstərilən qaydada, 1-ci tiraj müddəti ərzində qeydiyyatdan keçməlidir ki, o, 1-ci tiraj üçün oynanılan uduş fondu çəkilişində iştirak etmək hüququnu qazansın. Qeydiyyatdan keçmədiyi halda iştirakçı lotereyada iştirak etmək hüququndan azad olunur. Əgər İştirakçı müvafiq çek(lər)i 1-ci tiraj ərzində əldə edərsə, lakin həmin çek(lər)i 2-ci tiraj ərzində bu şərtlərin 1.2-ci bəndində göstərilən qaydada qeydiyyatdan keçərsə, o zaman İştirakçı 2-ci tiraj üçün oyunulan uduş fondu çəkilişində iştirak etmək hüququnu qazanacaqdır. Bu bəndin tələbini yerinə yetirməyən şəxs lotereya iştirakçısı qismində qəbul olunmur.

**1.4.** Lotereyanın 2-ci tiraj ərzində qeydiyyatdan keçmiş bütün yeni lotereya biletləri, habelə **Lotereyanın 1-ci tiraj müddətində qalib gələn və iştirak edən iştirakçılar bu şərtlərin 1.2-ci bəndində göstərilən qaydada yeni lotereya biletləri əldə etməklə 2-ci tiraj üçün oynanılan uduşda Lotereya çəkilişində iştirak etmək hüququna malikdirlər və I tirajın iştirakçıları II tirajda da iştirak üçün yeni lotereya bileti əldə etməlidir.**

1.5. Lotereyaya qoşulmaq istəyən İştirakçıların qeydiyyat zamanı aşağıdakı məlumatları əks olunmalıdır:

1.5.1. Lotereya Iştirakçısının adı, soyadı, atasının adı və doğum tarixi;

1.5.2. Lotereya İştirakçısının mobil nömrəsi, elektron poçt ünvanı;

1.5.3. Lotereya Iştirakçısının aldığı çek(lər)in üzərində qeyd edilən tarix;

1.5.4. Lotereya Iştirakçısının aldığı çek(lər)in üzərində qeyd edilən ümumi məbləğ;

1.5.5. Lotereya Iştirakçısının aldığı çek(lər)in üzərində qeyd edilən satış məntəqəsinin adı.

1.6. Lotereyaya qoşulan İştirakçı bütün şərtləri qəbul edəcəkdir.

1.7. Ən azı toplam 50 (əlli) manat dəyərində əldə edilən çek və ya çeklər bir şans qazandırır (toplam 50 manat dəyərində çek(lər)= 1 şans, toplam 100 manat dəyərində çek(lər)=2 şans və beləliklə davam edir). Hər bir İştirakçı şanslarını artırmaq məqsədilə birdən çox çek(lər) əldə edə bilər.

1.8. Lotereya biletinin sayına məhdudiyyət yoxdur, misal üçün toplam 1000 manat dəyərində İştirakçı alış veriş edərsə, o zaman 20 lotereya biletini qazanma şansı əldə edir.

1.9. Lotereya qalibləri şərtlərin 10-cu bənddəki məlumatları təqdim etmədiyi təqdirdə, uduşlar təşkilatçının sərəncamında qalacaqdır.

1.10. Hər bir İştirakçının onu digər iştirakçılardan fərqləndirən doqquz rəqəm kombinasiyadan ibarət olan lotereya biletinin vahid sıra nömrəsi olacaqdır. Hər bir İştirakçının Lotereyada nə qədər qazanmaq şansı olacaqsa, həmin şans sayları qədər müvafiq lotereya biletlərinin vahid sıra nömrələri Lotereyada iştirak edəcəkdir.

1.11. Əgər istifadəçi ödənişi öz kartı ilə deyil, başqa şəxsin kartı ilə edərsə, qalib olduğu təqdirdə hədiyyə kart sahibinə təqdim olunacaqdır. Əgər istifadəçi ödənişi adsız bank kartı ilə edərsə, qalib olduğu təqdirdə hədiyyə kart sahibinə, yəni kartın istifadəçiyə aid olması barədə təsdiqedici sənədi göstərilməklə təqdim olunacaqdır.

1.12. Lotereya AZ1000, Azərbaycan Respublikası, Bakı şəhəri, Səbail rayonu, Neftçilər prospekti 42 ünvanında yerləşən Park Bulvar Ticarət Mərkəzində keçiriləcəkdir.

1.13. Lotereya iştirakçısı tərəfindən lotereya zamanı lotereya nəticələrini öz xeyrinə dəyişmək və ya hər hansı yolla təsir etmək, həmçinin saxtalaşdırmaq (kompüter texnologiyası və ya hər hansı digər vasitə ilə) məqsədilə Təşkilatçının aldadılması faktı aşkar olunarsa, həmin iştirakçı Lotereyada iştirak etmək hüququnu itirir. Təşkilatçı bununla bağlı iştirakçıya məlumat verir, daha sonra yazılı qaydada xəbərdarlıq edəcəkdir. Qeyd olunan faktın daxili araşdırması aparıldıqdan sonra həmin iştirakçının nəticələri və onun şansı ləğv edilərək Lotereyanın keçirildiyi müddət ərzində birdəfəlik kənarlaşdırılacaqdır.

**2.** Tirajlı stimullaşdırıcı Lotereyanın **başlanma tarixi: “25”noyabr 2024-cü il saat 10:00-dan.**

3. Tirajlı stimullaşdırıcı Lotereyanın **bitmə tarixi: "28" mart 2025-ci il 22:00-dək.**

4. Lotereyanın bileti: 9 rəqəmdən ibarət, 2 tərəfli kağız biletdən ibarətdir.

5. Tirajlı stimullaşdırıcı Lotereyanın İştirakçıları: 18 yaş və daha yuxarı yaşda olan, 25 noyabr2024-cü il - 28 mart 2025-ci il tarixlərində PARK BULVAR-da VISAcard kartları ilə əməliyyatlar edən və bu Şərtlərin 7-ci bəndində nəzərdə tutulmuş qaydada qeydiyyatdan keçməklə könüllü istehlakçılar İştirakçı hesab ediləcəklər.

6. Hər bir Azərbaycan Respublikasının vətəndaşı Azərbaycan Respublikasında qeydiyyata alınan və buraxılan VISAcard kartları ilə nağdsız qaydada minimum toplam 50 (əlli) manat məbləğində edilən alış-veriş üzrə lotereya bileti bu Şərtlərin 1.1-ci bənddəki qeyd olunan lotereya obyektləri və lotereya obyektlərinə tətbiq olunan istisnaları nəzərə alınmaqla sahibinə 1 uduş şansı verir.

7. Eyni zamanda, uduşların bu qaliblər tərəfindən qəbulundan imtina olunduqda, bu Şərtlərin 9-cu və 10-cu bəndlərində qeyd olunan müddəalarına əməl etmədiyi təqdirdə, həmin uduşlar Təşkilatçıda qalacaqdır. Tirajlı stimullaşdırıcı Lotereyanın qalibləri tiraj oynanıldıqdan sonra həmin gün rəsmi internet səhifəsində elan ediləcəklər:

8. Uduşlar pul ödənişləri ilə əvəzləşdirilə bilməz.

9. **Uduşlu lotereya bileti əvəzləyicisinin (lotereya biletinə bərabər tutulan digər kağız daşıyıcısı) Lotereya Təşkilatçısı tərəfindən qəbulu uduş fondunun oynanıldığı tarixdən etibarən 7 (yeddi) iş günündən gec olmayaraq başlanacaq və 90 (doxsan) iş günü ərzində davam edəcəkdir. Lotereya Təşkilatçısı müraciətlər qəbul edildikdən sonra uduşları 10 iş günü ərzində qalib şəxslərə verəcəkdir.**

10. Qaliblər öz Uduşlarını əldə etmək üçün (i) şəxsiyyət vəsiqəsi (ii) bank kartı (və ya itirilmiş və adsız bank kartlarına münasibətdə həmin şəxsə aid olması barədə təsdiqedici sənəd), lotereyada udulan lotereya bileti və lotereya biletinə məxsus olan nəzarət kassa aparatının çeki ilə birlikdə AZ1000, Azərbaycan Respublikası, Bakı şəhəri, Səbial rayonu, Neftçilər prospekti 42 ünvanında tirajlı stimullaşdırıcı Lotereya Təşkilatçısına müraciət etməlidirlər.

11. Qaliblər öz uduşlarını digər üçüncü şəxsə ötürə bilməzlər. ƏDV vergisi istisna olmaqla, uduşla bağlı bütün digər vergilər və qanuni öhdəliklər qaliblərə məxsusdur.

12. Tirajlı stimullaşdırıcı Lotereyanın qalibi 18 yaş və daha yuxarı yaşda Azərbaycan Respublikasının vətəndaşı olmalı, qalib və o cümlədən də qalibi müşayiət edən şəxslər Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə uyğun olmalıdır. Qeyri müəyyənliyə yol verməmək üçün yalnız Azərbaycan Respublikasının vətəndaşları bu lotereyada iştirak edə bilərlər, Azərbaycan Respublikasında yaşayan əcnəbilər və vətəndaşı olmayan şəxslər bu lotereyada iştirak edə bilməzlrər. Müvafiq uduşları əldə etmək üçün tələb olunan sənədləri olmayan, əldə olunmasına dair problemləri olan şəxslər bu sənədlərin əldə olunmasına dair birbaşa olaraq özləri məsuldurlar.
13. Tirajlı stimullaşdırıcı Lotereya Qaydaları, tirajlı stimullaşdırıcı lotereyanın başlanmasından əvvəl, eyni zamanda tirajlı stimullaşdırıcı lotereyanın bitmə tarixi haqqında ətraflı məlumat və uduş fondunun oynanılması haqqında məlumat https://www.instagram.com/parkbulvar/ https://www.facebook.com/ParkBulvar/? locale=az_AZ

https://www.instagram.com/visaaz_official rəsmi sosial şəbəkələrində və https://parkbulvar.az/ internet səhifəsində elan ediləcəkdir.

14. Bu Qaydalar çərçivəsində tənzimlənməyən məsələlər Azərbaycan Respublikasının müvafiq qanunvericiliyinə əsasən həll ediləcəkdir. Lotereya Təşkilatçısı Azərbaycan Respublikasının müvafiq qanunvericiliyində müəyyən edilmiş tələblərə cavab verdiyi təqdirdə istənilən vaxt bu şərtlərə dəyişiklik etmək hüququnu özündə saxlayır.

14.1. Daha ətraflı məlumat üçün https://parkbulvar.az/, https://www.instagram.com/visaaz_official səhifəsinə istinad edə bilərsiniz. İştirakçı bu tirajlı stimullaşdırıcı Lotereya çərçivəsində ona məxsus olan məlumatın silinməsi, dəyişdirilməsi və ya əldə olunmasını arzu edərsə, müvafiq tələbi ilə bağlı lotereya Təşkilatçısına müraciət etməlidir.[e-poçt: office@vibeandwave.az].

15.